# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 34

Bakı şəhəri "17" may 2016-cı il

**"Respublikanın regionlarında uşaq psixi sağlamlıq xidmətinin təkmilləşdirilməsi barədə"**

Psixi sağlamlıq sahəsində Milli Strategiyaya uyğun olaraq üzvi və funksional mənşəli psixi pozuntulardan əziyyət çəkən uşaqlara psixi sağlamlıq xidmətinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Quba, Şəki və Şirvan şəhərlərinin uşaqlara tibbi xidmət göstərən ambulator-poliklinika müəssisələrində (şöbələrdə) psixi sağlamlıq bölmələri təşkil edilsin və onlara bu əmrin 2-ci bəndinə uyğun olaraq təhkim olunmuş ərazi üzrə uşaqlara psixi sağlamlıq xidmətinin göstərilməsi üçün regional mərkəz funksiyası həvalə edilsin.

2. Psixi sağlamlıq bölmələrinin tərkibinə rayon (şəhər) tibb müəssisələrinin mövcud ştat vahidləri və əmək haqqı fondu çərçivəsində həkim-psixiatr, loqoped, psixoloq, tərbiyəçi, müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı və əmək terapiyası üzrə təlimatçı ştatları daxil edilsin.

3. Strukturunda psixi sağlamlıq bölmələri olan tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın:

3.1. müəssisənin ştat cədvəlində müvafiq dəyişikliklər apararaq, onun müəyyən edilmiş qaydada təsdiq edilməsi təmin olunsun;

3.2. psixi sağlamlıq bölmənin fəaliyyəti üçün lazımı şərait yaradılsın;

3.3. psixi sağlamlıq bölmələrin kadrlarla komplektləşdirilməsi müəyyən olunmuş qaydada təmin edilsin;

3.4. psixi sağlamlıq bölmənin mütəxəssislərinin Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinə iş təcrübəsi keçmək üçün göndərilməsi təmin edilsin.

4. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın ki, psixi sağlamlıq bölmələri haqqında əsasnamə 15 gün müddətində hazırlanaraq müəyyən edilmiş qaydada təsdiq edilsin.

5. Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin direktoru F.İsmayılova tapşırılsın ki, psixi sağlamlıq bölmələrinə lazımi təşkilati-metodik yardımın göstərilməsi təmin edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

Nazir Oqtay Şirəliyev

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 13.05. 2016-ci il tarixli 34 nömrəliəmri ilə təsdiq edilmişdir

**Psixi sağlamlıq bölmələrinin xidmət ərazisi üzrə bölgüsü**

| S/N | Tibb müəssisələrinin adı | Təhkim olunmuş ərazilər |
|---|---|---|
| 1. | Sumqayıt şəhər 5 nömrəli uşaq poliklinikası | Abşeron, Qobustan, Siyəzən, Xızı rayonları |
| 2. | Gəncə şəhər 2 nömrəli Uşaq poliklinikası | Naftalan, Daşkəsən, Kəlbəcər, Goranboy, Gədəbəy, Şəmkir, Samux, Tovuz, Qazax, Ağstafa, Göygöl rayonları |
| 3. | Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının uşaq poliklinikası | Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, Ucar, Bərdə, Ağdam Tərtər, Füzuli, Ağcabədi, İmişli, Beyləqan, Zərdab rayonları |
| 4. | Şəki rayon Mərkəzi Xəstəxanasının konsultativ-poliklinika şöbəsi | Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala,İsmayıllı rayonları |
| 5. | Lənkəran şəhər Uşaq Poliklinikası | Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı, Lerik, Astara rayonları |
| 6. | Quba rayon Mərkəzi Xəstəxanasının poliklinika şöbəsi | Qusar, Şabran, Xaçmaz rayonları |
| 7. | Şirvan şəhər Mərkəzi Xəstəxanasının poliklinika şöbəsi | Salyan, Neftçala, Sabirabad, Hacıqabul, Şamaxı, Ağsu, Saatlı rayonları |